# Milli Məclisin Sədri Sahibə Qafarova Roma Papasının taxtaçıxma mərasimində iştirak edib





**Mayın 18-də Vatikanda Müqəddəs Pyotr meydanında Roma Papası XIV Leonun taxtaçıxma mərasimi keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, dövlət və hökumət başçılarının, parlament sədrlərinin, ruhanilərin, görkəmli ictimaiyyət nümayəndələrinin iştirak etdiyi mərasimdə ölkəmizi Milli Məclisin Sədri Sahibə Qafarova təmsil edib.

Milli Məclisin Sədri mərasim çərçivəsində keçirilmiş görüşdə Papa XIV Leoya Roma papası seçilməsi münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriklərini çatdırıb, ona fəaliyyətində uğurlar arzulayıb.

***"Azərbaycan"***



Azərbaycan.- 2025.- 20 may (№103).- S.2.